Cahanqoşa F.C.♦

DOI: 10.25108/2304-1730-1749.iolr.2021.64.43-51
UOT: 343.25

# Ölüm cəzasına qarşı mübarizədə beynəlxalq əməkdaşlığın əhəmiyyəti

**Xülasə:** Müasir dünyada insan həyatının mövcudluğu və qorunması ilə bağlı qarşıya çıxan əsas problemlərdən biri ölüm cəzasıdır. Bir sıra dövlətlərdə ölüm cəzasının aktiv şəkildə icrası və insan və vətəndaş hüquq və azadlıqlarına qarşı laqeyd yanaşma həmin dövlətlərin demokratik quruluşunu, hüquqiliyini və üzərinə götürdüyü beynəlxalq öhdəlikləri vicdanla yerinə yetirməsini şübhə altına alır. İnsan və vətəndaş hüquq və azadlıqlarının pozulması və məhdudlaşdırılması faktları bu hüquq və azadlıqları milli və beynəlxalq səviyyədə qoruyacaq müdafiə mexanizmlərinin yaradılmasını zəruri etmişdir. Çünki bu problemin həllinə yalnız kollektiv formada, yəni dövlətlərin və bu sahədə fəaliyyət göstərən ixtisaslaşmış ayrı-ayrı beynəlxalq subyektlərin əməkdaşlığı və birgə səyi nəticəsində nail olmaq mümkündür. Məqalədə ölüm cəzası yaşamaq hüququnun inkarı kimi şərh edilmiş, ölüm cəzasının ləğvində beynəlxalq əməkdaşlığın əhəmiyyəti vurğulanmış, ölüm cəzası ilə bağlı regionlar üzrə statistik məlumatlar göstərilmiş, müəllifin bununla bağlı mövqeyi əsaslandırılmış və sonda təklif və tövsiyələr verilmişdir.

**Açar sözlər:** beynəlxalq hüquqi mexanizmlər; Ölüm Cəzasına qarşı Mübarizə üzrə Beynəlxalq Komissiya; BMT; qətnamələr; moratoryum; Ölüm Cəzası ilə mübarizə üzrə Ümumdünya Koalisiyası.

İnsanlar tarixin hər bir dönəmində birlikdə sülh şəraitində yaşaya bilmək və cəmiyyətin ümumi rifahını təmin edə bilmək üçün müxtəlif üsul və vasitələrdən istifadəyə gərək duymuşdur. Bu üsul və vasitələrdən biri və birincisi hüquqdur. Cəmiyyətdəki münasibətlərin tənzimi zamanı hüquq, xüsusən də cinayət və cəza hüququ cəmiyyətdə baş verən proseslərə adaptasiya olmaq üçün vaxtaşırı müəyyən dəyişikliklərə məruz qalmışdır. Bunun əsas səbəbi kimi tarixən dəyişən dünyəvi və dini dəyərlər çıxış edir. Zaman keçdikcə ölüm cəzasına yanaşmalar da dəyişmişdir. Bu dəyişikliklər həm həmin ərazidə yaşayan etnik qrupun, yəni - xalqların tarixi inkişafı və mədəniyyəti, həmçinin adət-ənənələri, həm də cəmiyyətin mövcud dini və hüquqi düşüncəsindən qaynaqlanır. Bugün dünyada cinayətkarlıq indeksinə görə lider olan Venesuelada ölüm cəzası hələ 1867-ci ildə ləğv edilmişdir [8, s. 11]. Dünyanın ən inkişaf etmiş dövlətlərindən ABŞ-da və Çində isə ölüm cəzası hələ də saxlanılmaqdadır [1].

Bu gün dünya birliyi tərəfindən xalq hakimiyyətin mənbəyi və dövlət siyasətinin ilkin subyekti və əsas fiquru kimi tanınır. İnsan hüquqlarını qorumaq və onlara hörmət etmək, bu sahədə müvafiq siyasət həyata keçirmək dövlətin daxili işi kimi deyil, ümumi qayğı və məsuliyyət predmeti kimi qəbul olunur. Müasir dövrdə cəmiyyətin mövcud inkişaf səviyyəsinə baxaraq, insan və cəmiyyətin sosial təkümülü nəticəsində artıq köhnəlmiş ənənəvi təcrübənin, bir sıra dini ritualların (insanların qurban edilməsi, fiziki işgəncə və s.) əksər dünya xalqları tərəfindən pislənildiyini, bunlardan imtina edildiyini müşahidə etmək mümkündür. Bu sıraya ölüm hökmünün tətbiqi

♦ **Cahanqoşa Fərhad Cavad oğlu** – Bakı Dövlət Universitetinin Hüquq Fakültəsinin İnsan Hüquqları ixtisaslaşması üzrə I kurs magistr tələbəsi (Azərbaycan). E-mail: mr.jahangosha@gmail.com

təcrübəsi də daxildir. Bununla belə, bu məsələdə vahid konsensus əldə olunmamışdır. Lakin sevindirici haldır ki, dünya miqyasında ölüm cəzası ilə bağlı formalaşdırılan mənfi rəy və təzyiq dövlətlərin belə bir təcrübədən imtina etməsi prosesinə təkan verir. Yaxın tarixə nəzər saldıqda görmək mümkündür ki, 1988-cı ildə 35 dövlət artıq bütün növ cinayətlərə görə ölüm cəzasından imtina etmişdi [8, s. 14]. 13 il sonra bu dövlətlərin sayı artıq 75-ə, 2007-ci ildə isə 91-ə çatmışdı [8, s. 14]. Müəlliflərdən Roger Hood yazır ki, XX əsrin II yarısından etibarən dövlətlərin ölüm cəzasından imtina etmə göstəricisi ildən-ilə artmışdır: 1965-ci ildə cəmi 25 dövlət ölüm cəzasını tam ləğv etmişdisə, 1995-ci ildə artıq belə dövlətlərin sayı 60-a çatmışdı və bu bütün dünya ölkələrinin 31%-ni təşkil edirdi [8, s. 13-14]. Ölüm cəzasının yüzillər boyunca demək olar ki, hər bir dövlətdə tətbiq olunduğu bir dünya üçün bugünkü vəziyyət həqiqətən də dramatik bir dəyişiklik hesab edilməlidir.

Son illərdə dünyada ölüm cəzasının ləğvinə dair açıq bir tendensiya nəzərə çarpmaqdadır. Bunun əsas səbəbi beynəlxalq və regional quruluşlar, dövlətlərin milli siyasəti və təşviq edilən hərəkətləridir. Ölüm cəzasının insan hüquqlarının müdafiəsi ilə bağlı bir problem olduğunun qəbul edilməsi və ondan imtina edilməsi bu istiqamətdə atılmalı olan ilk və ən kritik addımdır. 1994-cü ildə BMT Baş Məclisi ölüm cəzasının tətbiqini məhdudlaşdırmaq və moratoryum tətbiq etməklə bağlı qərar qəbul etdiyi zaman Sinqapur, Trinidad və Tobaqo kimi dövlətlər "ölüm cəzası bir insan hüquqları problem deyildir" kimi bir fikir bəyan edərək qərarın lehinə səs verməkdən imtina etmişdi [11, s. 131]. Nəticə etibarilə, 74 dövlət qərarın lehinə səs verməkdən imtina etmiş və BMT-nin bu istiqamətdə atdığı addım uğursuzluqla nəticələnmişdi [11, s. 131]. Lakin bütün bunlar ölüm cəzasının dünya miqyasında bir insan hüquqları problemi olaraq tanınmasına mane ola bilmədi.

1997-ci ildə BMT-nin İnsan Hüquqları üzrə Ali Komissiyası bununla bağlı qəbul etdiyi qərarında "ölüm cəzasından imtinanın insan şərəf və ləyaqətinin daha effektiv müdafiəsində və insan hüquqları müdafiəsinin daha effektiv təşkilində əhəmiyyətli bir yerə malik olduğunu" qeyd etdi [7]. Daha sonralar bu istiqamətdə atılan addımlar və qəbul edilən qərarlar da bu qərarı təsdiqlədi.

BMT-nin Narkotiklər və Cinayətlər üzrə İdarəsinin (UNODC) 2013-cü ildə yayımlanan hesabatında Avropa və Okeaniya regionunda yerləşən dövlətlər cinayətkarlıq göstəricisinə görə digər regiondakı dövlətlərdən kəskin şəkildə fərqlənir və dünyada cinayətkarlığın ən az olduğu dövlətlər bu iki regionda yerləşir [12]. Ölüm cəzasının saxlanıldığı dövlətlərdə isə həm cinayətkarlıq göstəriciləri, həm də həyata keçirilən edamlar ildən-ilə artmaqda davam edir. Bununla da ölüm cəzasının heç də çəkindirici bir rol oynamadığı öz sübutunu tapmış olur. Bununla həm də bir daha təsdiq olunur ki, ölüm cəzası məsələsi sadəcə insan hüquqlarının müdafiəsi problemi kimi qalmamalı, dövlətlərarası xarakter daşımalıdır.

Ölüm cəzasının beynəlxalq səviyyədə ləğvi ilə bağlı atılmış ən böyük addımlardan biri isə 1966-cı il "Mülki və siyasi hüquqlar haqqında" Pakta əlavə edilmiş II Əlavə Protokoldur. 1989-cu ildə BMT Baş Məclisi tərəfindən qəbul edilən 1966-cı il "Mülki və siyasi hüquqlar haqqında" Pakta edilmiş II Əlavə Protokol ölüm cəzasının ləğvini nəzərdə tutur [9]. Protokol ölüm cəzasının ləğvini nəzərdə tutsa da, dövlətlərə müharibə dövründə törədilmiş hərbi xarakterli ağır cinayətlərə görə ölüm cəzasının saxlanılmasına icazə verir [9]. Bununla yanaşı, BMT-nin müxtəlif illərdə ölüm cəzası ilə bağlı qlobal moratoryum elan etməsi istiqamətində də qətnamələr qəbul edilmişdir. BMT-nin 2007-ci il 62/149 saylı qətnaməsi dövlətləri ölüm cəzasına moratoryum qoymağa çağırır [13]. 2007-ci ildə 104 dövlət lehinə və 54 dövlət əleyhinə olmaqla qətnamə qəbul edilmişdir [13]. Bundan sonra BMT ölüm cəzasına moratoryum qoyulması ilə bağlı daha 5 qətnamə də qəbul

etmişdir. 2018-ci il 17 dekabr tarixində isə ölüm cəzasının ləğvini və edamların tətbiqinə moratoryumun elan edilməsini nəzərdə tutan 73/175 saylı qətnamə qəbul edildi [13]. Qətnamələrdə BMT dövlətlərin ölüm cəzası ilə bağlı dövlətdaxili təcrübələrindən dərin narahatlıq duyduğunu bildirir və onları tənqid edir, həmçinin dövlətləri ölüm cəzasına qarşı moratoryum tətbiq etməyə, yəni cəza sistemindən tam çıxarmasalar belə, ölüm cəzasını aktiv şəkildə tətbiq etməməyə çağırır. 2018-ci ildə isə səsvermə nəticələri belə olmuşdur: 123 lehinə, 36 əleyhinə və 30 bitərəf səs [13]. Son olaraq, 2020-ci ildə 16 dekabr tarixində BMT Baş Assambleyası ölüm cəzası ilə bağlı moratoryuma həsr olunmuş 75/183 nömrəli, sayca 8-ci qətnaməsini qəbul etmiş, səsvermə nəticələri isə 2018-ci ildəki səsvermə nəticələri ilə eynilik təşkil etmişdir [1].

Beynəlxalq Amnistiya Təşkilatının dövlətlər üzrə ölüm cəzası statistikasını özündə əks etdirən 2020-ci il hesabatına əsasən, hal-hazırda dünyada 55 dövlətdə ölüm cəzası saxlanılmaqda davam edir [1]. 144 dövlətdə isə ölüm cəzası ya ləğv edilmişdir, ya da icra edilməməkdədir [1]. Ölüm cəzasını saxlayan və aktiv şəkildə icra edən dövlətlərin demək olar ki, hamısı Asiya regionunda yerləşir. Belə ki, Avropada və Okeaniyada ölüm cəzası artıq öz aktuallığını itirmişdir, Amerika regionunda isə yalnız ABŞ-da aktiv şəkildə icra edilməkdədir [1]. Afrika qitəsində ölüm cəzasını saxlayan dövlətlərin çoxluq təşkil etməsinə baxmayaraq, aktiv şəkildə yalnız Misir və Somalidə icra edilməkdədir (sırası ilə 2020-ci ildə 107 və 11 edam) [1].

Ölüm cəzası ilə mübarizədən danışarkən Ölüm Cəzasına qarşı Mübarizə üzrə Beynəlxalq Komissiyanı (İCDP) qeyd etmək lazımdır. İspaniya hökuməti 2010-cu ildə dünyanın bütün bölgələrində ölüm cəzasına qarşı mübarizəni gücləndirmək və ölüm cəzasının tətbiqinə moratoryum qoymaq məqsədilə Ölüm Cəzasına qarşı Mübarizə üzrə Beynəlxalq Komissiyanın yaradılması təşəbbüsünü irəli sürdü və 18 dövlətin iştirakı ilə bu qurum yaradıldı [5]. Komissiyanın vəzifəsi ölüm cəzasının ləğv edilməsi və bu sahədə fəaliyyət göstərən digər beynəlxalq və regional təşkilatlara dəstəyin verilməsi və vaxtaşırı müxtəlif tədbirlərin həyata keçirilməsidir [5]. 2016-cı ildə isə Komissiyanın nizamnaməsi qəbul edilmişdir. Komissiyanın strukturu komissarlardan, komissiyanı idarə edən prezidentdən və katiblikdən ibarətdir. Bununla yanaşı, Komissiyanın tərkibində Dəstək Qrupu (Support Group) da fəaliyyət göstərir. Dəstək qrupu dedikdə isə müxtəlif regionları əhatə edən 23 dövlətin nümayəndəsi başa düşülür [6]. Komissiyanın fəaliyyəti üçün maliyyələşmələrin böyük bir qismi də Dəstək Qrupu tərəfindən həyata keçirilir [6]. Komissiyanın əsas fəaliyyət istiqamətləri kimi bunları qeyd etmək olar:

- Komissiya nəşrlərinin geniş şəkildə ictimaiyyətin diqqətinə çatdırılması;
- Ölüm cəzasının tətbiqi ilə bağlı narahatlıq doğuran məsələlər barədə bəyanatların verilməsi və dövlət rəsmiləri ilə görüşlərin keçirilməsi;
- Bu sahədə fəaliyyət göstərən dövlətlərarası və ya dövlətdaxili quruluşlara yardımların və ianələrin edilməsi;
- Komissiya üzvlərinin ölüm cəzasını tətbiq edən dövlətlərə vaxtaşırı səfərlər etməsi və ya xüsusi missiyaların göndərilməsi [5].

Ölüm cəzasına qarşı ən aktiv şəkildə mübarizə aparan qurumlardan biri olan Ölüm Cəzası ilə mübarizə üzrə Ümumdünya Koalisiyası Fransada Birlikdə Ölüm Cəzasına Qarşı (ECPM) adlı qeyri-hökümət təşkilatının təşəbbüsü ilə Strasburqda yaradılmış, 2001-ci ildə isə fəaliyyəti üzrə Strasburq Bəyannaməsi qəbul edilmişdir [14]. 2002-ci ildə isə Romada öz fəaliyyətinə başlamışdır. Koalisiyanın qərarı ilə 2003-cü ildən bəri hər il 10 oktyabr tarixi ölüm cəzası ilə mübarizə günü kimi qeyd edilməkdədir [14]. Ümumdünya Koalisiyasının əsas məqsədi ölüm cəzasına qarşı mübarizənin beynəlxalq miqyasını gücləndirməkdən, son nəticədə isə ölüm cəzasının tam ləğv

edilməsinə nail olmaqdan ibarətdir və bütün bunlara nail olmaq üçün də Ümumdünya Koalisiyası ölüm cəzasının qüvvədə olduğu dövlətlərdə ölüm hökmlərinin və edamların qəti şəkildə dayandırılmasını və ya azaldılmasını tələb edir, bu sahədə tədbirlər planı hazırlayır və həyata keçirir [14]. Koalisiyanın təşəbbüsü ilə 2008-ci ildə Pekindəki Yay Olimpiya Oyunları ərəfəsində petisiya təşkil edildi və 256 min insan petisiyanı imzalayıb Çin prezidentinə təqdim edərək ölüm cəzasına rəsmi moratoryum elan etməyə çağırdı [3].

Ölüm cəzasına qarşı mübarizədə Ümumdünya Koalisiyasının yaradılması təşəbbüsü ilə çıxış edən Birlikdə Ölüm Cəzasına qarşı qeyri-hökümət təşkilatı (Ensemble Contre la Peine de Mort) da mühüm əhəmiyyətə malikdir. Belə ki, Koalisiya 2012-ci ildə tam müstəqil təşkilat olana qədər bu QHT tərkibində fəaliyyət göstərmişdir [14]. Hal-hazırda QHT hər 3 ildən bir ölüm cəzasına qarşı mübarizə üzrə Konqres təşkil edir və bu dünyanın dörd bir tərəfindən ölüm cəzasına qarşı mübarizə aparan subyektləri vahid strategiya hazırlamaq və ayrı-ayrı dövlətlərə bəyanatlar vermək üçün bir araya gətirir [4]. ECPM vəkilləri əvəz etmir, sadəcə beynəlxalq səfərbərlik kampaniyası və ya diplomatik dəstək forması almış müdaxilə şəklində xidmət göstərir. Nümunə olaraq qeyd etmək mümkündür ki, ECPM 2000-ci illərdə Odell Barnes və ABŞ-da ölüm cəzasının icrasını gözləyən digər məhkumlar üçün petisiya başlatmış, 2011-ci ildə isə Troy Devis və Mumia Abu Camala hüquqi yardım göstərmişdir [10]. ECPM həm də Mavritaniyada ölüm cəzasına məhkum edilən blogger Məhəmməd Şeyx Mxaitiri də dəstəkləmişdir [4]. Lakin ECPM-nin bu sahədə gördüyü ən böyük iş Liviyada ölüm cəzasına məhkum edilmiş bolqar həkim və tibb bacılarının cəzalarının təxirə salınması və son nəticədə onların öz ölkələrinə ekstradisiya edilməsinə nail olmasıdır [10]. Mənzil qərargahı Fransada yerləşən bu qurumun əsas fəaliyyət istiqamətini indi də ölüm cəzasını saxlayan dövlətlərdə həyata keçirdiyi lobbiçilik fəaliyyəti təşkil edir və qurum bu dövlətlərdə ictimaiyyətin fikrinin müsbətə doğru dəyişdirilməsi üçün əzmlə çalışmaqda davam edir.

Ölüm cəzası ilə bağlı dünya dövlətlərinin müasir vəziyyətinin öyrənilməsində Beynəlxalq Amnistiya Təşkilatının da rolu əvəzedilməzdir. Beynəlxalq Amnistiya Təşkilatı baş qərargahı Londonda yerləşən və 1961-ci ildə yaradılan qeyri-hökümət təşkilatıdır. Hal-hazırda Amnistiya Təşkilatına 150-dən çox dövlət üzvdür və 63 dövlətdə də bu Təşkilatın qərargahları mövcuddur [2]. 1990-cı illərdən başlayaraq təşkilat artan ölüm hökmlərini və edamları görərək bu sahəyə xüsusi diqqət ayırmağa və ölüm cəzasından əl çəkməyən dövlətləri beynəlxalq ictimaiyyətin diqqətinə çatdırmağa başlamışdır [2]. Təşkilat indi də insan hüquqlarının qorunması və dövlətlərdə insan hüquqları üzrə pozuntulara diqqət çəkmək üçün təşviqat kampaniyaları həyata keçirməkdə davam edir. Beynəlxalq Amnistiya Təşkilatı 1977-ci ildən ölüm cəzasına qarşı mübarizə üzrə spesifik fəaliyyət həyata keçirir. Belə ki, Beynəlxalq Amnistiya Təşkilatı ya dövlət rəsmilərinin məlumatı, ya da dövlətlərə göndərdiyi missiyalar vasitəsilə hər il regionlar və dövlətlər üzrə qeydə alınmış ölüm hökmləri və icra edilmiş ölüm cəzaları üzrə statistikanı, eyni zamanda göstəricilərin əvvəlki illərlə müqayisəsini özündə əks etdirən hesabatlar dərc edir [2].

Yekunda söyləmək mümkündür ki, ölüm cəzası problemi ciddi bir problem kimi yalnız Asiya qitəsində qalmaqdadır. Bu regionda dövlətlərin ölüm cəzasına bu qədər çox müraciət etməsi ən sonda cəmiyyətə də təsir edir və insanların düşüncəsində insan həyatı öz mənasını itirməyə başlayır. Bu da zamanla cəmiyyətin düşüncəsində deqradasiyaya səbəb olur və ölüm cəzası özünümüdafiə kimi təzahür etməyə başlayır. Ölüm cəzasının saxlandığı dövlətlərin beynəlxalq qurumların çağırışlarına məhəl qoymadığını nəzərə alsaq, problemin həlli ilə bağlı əsas yükün beynəlxalq və dövlətdaxili təşkilatlar üzərinə düşdüyünü söyləmək mümkündür. Bir tərəfdən beynəlxalq aləmdə dövlətüstü qurumlar və aparıcı dövlətlər tərəfindən ölüm cəzasını saxlayan dövlətlərə ciddi

sanksiyalar və təzyiqlər tətbiq edilə bilər. Digər tərəfdən isə dövlətdaxili qurumların da burada həlledici rolu vardır. Bu qurumlar BMT-nin İnsan Hüquqları Komitəsinin, Qırmızı Xaç komitəsinin və s.-nin nəşrlərini öz dövlət dillərinə tərcümə edə və nəşr edə bilərlər. Bunun nəticəsində də ölüm cəzası vaxtaşırı gündəmə gətiriləcək və əhali arasında da maarifləndirmə işi həyata keçiriləcəkdir. Çünki burada dövlət siyasəti nə qədər əhəmiyyətli olsa da, əhalinin bu məsələyə münasibəti də bir o qədər önəm kəsb edir. Demokratiya nə qədər mütərəqqi olsa da, qərarı sorğu və s. bu kimi yollar ilə bu barədə biliyə sahib olanlar deyil, kütlə verir. Əhalinin yanlış düşüncədə olması halında bu çox mənfi nəticələrə gətirib çıxara bilər. Məhz bu səbəbdən maarifləndirmə işinin aparılmasına və ölüm cəzasının ləğvi məsələsinin vaxtaşırı gündəmə gətirilməsinə böyük ehtiyac vardır.

**Biblioqrafiya**

1. Amnesty International Global Report: Death Sentences and Executions 2020 [Elektron resurs]. URL: https://www.amnesty.org/download/Documents/ACT5037602021ENGLISH. PDF (müraciət tarixi: 15.08.2021)

2. Amnesty International: Who we are [Elektron resurs]. URL: https://www.amnesty.org/ en/who-we-are/ (müraciət tarixi: 15.08.2021)

3. China refuses to consider 250000- strong petition [Elektron resurs]. URL: https://worldcoalition.org/2008/06/16/china-refuses-to-consider-250000-strong-petition/ (müraciət tarixi: 12.08.2021)

4. ECPM: Our History [Elektron resurs]. URL: https://www.ecpm.org/en/our-history/ (müraciət tarixi: 12.08.2021)

5. International Commission Against the Death Penalty: Mandate [Elektron resurs]. URL: https://icomdp.org/mandate-2/ (müraciət tarixi: 10.08.2021)

6. International Commission Against the Death Penalty: Support Group [Elektron resurs]. URL: https://icomdp.org/support-group/ (müraciət tarixi: 10.08.2021)

7. Question of the death penalty C.H.R. res. 1997/12, ESCOR Supp. (No. 3) at 69, U.N. Doc. E/CN.4/1997/12 (1997) [Elektron resurs]. URL: http://hrlibrary.umn.edu/UN/ 1997/Res012.html (müraciət tarixi: 14.08.2021)

8. Roger H. and Carolyn H. The Death Penalty: A Worldwide Perspective. – Oxford: University Press, 2008. - 486 s.

9. Second Optional Protocol to the International Covenant on Civil and Political Rights [Elektron resurs]. URL: https://www.ohchr.org/en/professionalinterest/pages/opccpr1.aspx (müraciət tarixi: 09.08.2021)

10. Third World Congress Against the Death Penalty Report [Elektron resurs]. URL: https://www.ecpm.org/wp-content/uploads/ACTES-Paris-2007-Eng.pdf (müraciət tarixi: 14.08.2021)

11. The Death Penalty: Beyond Abolition. Part 285. Council of Europe Publication, 2004. - 244 s.

12. UN Office of Drugs and Crime: International Homicide Statistics [Elektron resurs]. URL: https://www.unodc.org/documents/data-and-analysis/IHS-rates-05012009.pdf (müraciət tarixi: 14.08.2021)

13. UN: Opposition to the death penalty continues to grow [Elektron mənbə]. URL: https://www.amnesty.org/en/latest/news/2020/12/un-opposition-to-the-death-penalty-continues-to-grow/#:~:text=Amnesty%20International%20opposes%20the%20death,to%20carry%20out%20the%20execution. (müraciət tarixi: 11.08.2021)

14. World Coalition Against the Death Penalty: Presentation&History [Elektron resurs]. URL: https://worldcoalition.org/who-we-are/presentation-history/ (müraciət tarixi: 07.08.2021)

**Jahangosha F.J.**♦

**DOI: 10.25108/2304-1730-1749.iolr.2021.64.43-51**
**UDC: 343.25**

## Importance of international cooperation against the death penalty

**Abstract:** One of the major problems in the existence and protection of human life in the modern world is the death penalty. The active execution of the death penalty in a number of countries and their indifference to human and civil rights and freedoms call into question the democratic structure, legitimacy and conscientious fulfillment of their international obligations. The facts of violation and restriction of human and civil rights and freedoms have necessitated the establishment of protecting mechanisms that will protect these rights and freedoms at the national and international levels. The reason being that the solution of this problem can be achieved only in a collective form - as a result of cooperation and joint efforts of states and specialized international entities operating in this field. The article interprets the death penalty as a denial of the right to life, emphasizes the importance of international cooperation in the abolition of the death penalty, provides statistics on the death penalty by regions, substantiates the author's position and makes suggestions and recommendations.

**Keywords:** international legal mechanisms; International Commission against the Death Penalty; UN; resolutions; moratorium; World Coalition Against the Death Penalty.

## References

1. Amnesty International Global Report: Death Sentences and Executions 2020. Available at: https://www.amnesty.org/download/Documents/ACT5037602021ENGLISH.PDF (accessed: 15.08.2021)

2. Amnesty International: Who we are. Available at: https://www.amnesty.org/en/who-we-are/ (accessed: 15.08.2021)

3. China refuses to consider 250000- strong petition. Available at: https://worldcoalition.org/2008/06/16/china-refuses-to-consider-250000-strong-petition/ (accessed: 12.08.2021)

♦ **Jahangosha Farhad Javad** – Master student of the Human Rights Law LL.M Program at Baku State University Law Faculty (Azerbaijan). E-mail: mr.jahangosha@gmail.com

4. ECPM: Our History. Available at: https://www.ecpm.org/en/our-history/ (accessed: 12.08.2021)

5. International Commission Against the Death Penalty: Mandate. Available at: https://icomdp.org/mandate-2/ (accessed: 10.08.2021)

6. International Commission Against the Death Penalty: Support Group. Available at: https://icomdp.org/support-group/ (accessed: 10.08.2021)

7. Question of the death penalty C.H.R. res. 1997/12, ESCOR Supp. (No. 3) at 69, U.N. Doc. E/CN.4/1997/12 (1997). Available at: http://hrlibrary.umn.edu/UN/1997/Res012.html (accessed: 14.08.2021)

8. Roger H. and Carolyn H. The Death Penalty: A Worldwide Perspective. Oxford University Press Publ., 2008, 486 p.

9. Second Optional Protocol to the International Covenant on Civil and Political Rights. Available at: https://www.ohchr.org/en/professionalinterest/pages/opccpr1.aspx (accessed: 09.08.2021)

10. Third World Congress Against the Death Penalty Report. Available at: https://www.ecpm.org/wp-content/uploads/ACTES-Paris-2007-Eng.pdf (accessed: 14.08.2021)

11. The Death Penalty: Beyond Abolition, Part 285. Council of Europe Publication, 2004, 244 p.

12. UN Office of Drugs and Crime: International Homicide Statistics. Available at: https://www.unodc.org/documents/data-and-analysis/IHS-rates-05012009.pdf (accessed: 14.08.2021)

13. UN: Opposition to the death penalty continues to grow. Available at: https://www.amnesty.org/en/latest/news/2020/12/un-opposition-to-the-death-penalty-continues-to-grow/#:~:text=Amnesty%20International%20opposes%20the%20deathto%20carry%20out%20the%20execution. (accessed: 11.08.2021)

14. World Coalition Against the Death Penalty: Presentation&History. Available at: https://worldcoalition.org/who-we-are/presentation-history/ (accessed: 07.08.2021)

**Джахангоша Ф.Д.♦**

**DOI: 10.25108/2304-1730-1749.iolr.2021.64.43-51**
**УДК: 343.25**

## Важность международного сотрудничества против смертной казни

**Аннотация:** Одной из основных проблем существования и защиты человеческой жизни в современном мире является смертная казнь. Активное исполнение смертной казни в ряде стран и их безразличие к правам и свободам человека и гражданина ставят под сомнение демократическую структуру, законность и добросовестное выполнение ими своих международных обязательств. Факты нарушения и ограничения прав и свобод человека и

♦ **Джахангоша Фархад Джавад оглы** - магистр по специальности Право прав человека, юридического факультета Бакинского Государственного Университета (Азербайджан). E-mail: mr.jahangosha@gmail.com

гражданина потребовали создания механизмов защиты, которые будут защищать эти права и свободы на национальном и международном уровнях. Потому что решение этой проблемы может быть достигнуто только в коллективной форме - в результате сотрудничества и совместных усилий государств и специализированных международных структур, работающих в этой сфере.

В статье смертная казнь трактуется как отказ в праве на жизнь, подчеркивается важность международного сотрудничества в отмене смертной казни, приводится статистика смертной казни по регионам, обосновывается позиция автора, даются предложения и рекомендации

**Ключевые слова:** международные правовые механизмы; Международная комиссия против смертной казни; ООН; резолюции; морато́риум, Всемирная коалиция против смертной казни

## Библиография

1. Amnesty International Глобальный доклад: Смертные приговоры и казни 2020 [Электронный ресурс]. Режим доступа: https://www.amnesty.org/download/Documents/ACT 5037602021ENGLISH.PDF (дата обращения: 15.08.2021) (на англ. яз.).

2. Amnesty International: Кто мы есть [Электронный ресурс]. Режим доступа: https://www.amnesty.org/en/who-we-are/ (дата обращения: 15.08.2021) (на англ. яз.).

3. Китай отказывается рассматривать петицию из 250 тысяч человек [Электронный ресурс]. Режим доступа: https://worldcoalition.org/2008/06/16/china-refuses-to-consider-250000-strong-petition/ (дата обращения: 12.08.2021) (на англ. яз.).

4. ЭСПМ: Наша история [Электронный ресурс]. Режим доступа: https://www.ecpm.org/en/our-history/ (дата обращения: 12.08.2021) (на англ. яз.).

5. Международная Комиссия против Смертной Казни: Мандат [Электронный ресурс]. Режим доступа: https://icomdp.org/mandate-2/ (дата обращения: 10.08.2021) (на англ. яз.).

6. Международная Комиссия против смертной казни: Группа поддержки [Электронный ресурс]. Режим доступа: https://icomdp.org/support-group/ (дата обращения: 10.08.2021)

7. Вопрос о смертной казни. C.H.R. res. 1997/12, ESCOR Supp. (No. 3) at 69, U.N. Doc. E/CN.4/1997/12 (1997) [Электронный ресурс]. Режим доступа: http://hrlibrary.umn.edu/UN/ 1997 / Res012.html (дата обращения: 14.08.2021) (на англ. яз.).

8. Роджер Х. И Каролин Х. Смертная казнь: Мировая Перспектива. – Оксфорд: Издательство Оксфордского Университета, 2008. - 486 с.

9. Второй Факультативный протокол к Международному пакту о гражданских и политических правах [Электронный ресурс]. Режим доступа: https://www.ohchr.org/en/ professionalinterest/pages/opccpr1.aspx (дата обращения: 09.08.2021)

10. Доклад о третьем Всемирном Конгрессе против смертной казни [Электронный ресурс]. Режим доступа: https://www.ecpm.org/wp-content/uploads/ACTES-Paris-2007-Eng.pdf (дата обращения: 14.08.2021) (на англ. яз.).

11. Смертная казнь: Вне отмены. Часть 285. Публикация Совет Европы, 2004. - 244 с.

12. Управление ООН по Наркотикам и Преступности: Международная статистика убийств [Электронный ресурс]. Режим доступа: https://www.unodc.org/documents/data-and-analysis/IHS-rates-05012009.pdf (дата обращения: 14.08.2021) (на англ. яз.).

13. ООН: Противодействие смертной казни продолжает расти [Электронный ресурс]. Режим доступа: https://www.amnesty.org/en/latest/news/2020/12/un-opposition-to-the-death-penalty-continues-to-grow/#:~:text=Amnesty%20International%20opposes%20the%20death to%20carry%20out%20the%20execution. (дата обращения: 11.08.2021) (на англ. яз.).

14. Всемирная Коалиция против смертной казни: Презентация и история [Электронный ресурс]. Режим доступа: https://worldcoalition.org/who-we-are/presentation-history/ (дата обращения: 07.08.2021) (на англ. яз.).